

**Vətən müharibəsi adlandırılan ikinci Qarabağ müharibəsinin Ermənistanın tam kapitulyasiyası ilə yekunlaşması Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. İlk növbədə, qeyd edək ki, Ermənistanın kapitulyasiyası ilə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa oldu. Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları işğalçı Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Hərbi əməliyyatların məqsədi ilk gündən sülhə məcburetmə əməliyyatı kimi göstərilirdi və biz məqsədimizə çatdıq.**

# Ermənistan tarixdə məğlub dövlət kimi qalacaq



Ali Baş Komandan cənab İlham Əliyev başda olmaqla qəhrəman ordumuz Ermənistanı sülhə məcbur etdi. Döyüş meydanında qazanılmış zəfərlər siyasi müstəvidə də böyük qələbənin qazanılmasını şərtləndirdi. Noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladıqları birgə bəyanat ordumuzun döyüş meydanında qazandığı parlaq qələbəni siyasi-diplomatik müstəviyə daşıdı. Ali Baş Komandan xalqa müraciətində bu məqamı xüsusi vurğuladı: " ...Mən deyirdim, istəyirəm ki, bu hərbi mərhələ də dayansın, keçək siyasi mərhələyə. Nə oldu? Mən deyən oldu. Bax, bu gün mən deyən oldu. Hərbi mərhələ başa çatır, keçirik siyasi məsələyə. Demək olar ki, bizə maksimum sərf edən sənəd imzalandı… Biz tarixi qələbəmizi hüquqi və siyasi müstəvidə daha da möhkəmləndirəcəyik".

Xalqımız bu tarixi qələbəni sevinclə qarşıladı, ümumxalq yürüşləri ilə, Azərbaycan və Türkiyə bayraqları ilə qeyd etdi. Bu yürüşlərdə Ali Baş Komandana, qəhrəman Azərbaycan Ordusuna alqışlar səsləndi, xalqımız bir daha öz Prezidentinin, öz ordusunun arxasında olduğunu qətiyyətlə bildirdi. Bu, böyük, tarixi və hər bir azərbaycanlıya qürur və fəxarət hissi yaşadan qələbədir və onu lazımınca qiymətləndirmək lazımdır.

Lakin ayrı-ayrı vətəndaşlarımızın bəzi "müxalifət" nümayəndələrinin "uzaqgörənliyinə" inanaraq tarixi bəyanatın ayrı-ayrı bəndlərini təftiş edib, onun əhəmiyyətini azaltmaq cəhdlərinə inanması, məsələlərə səthi yanaşması təəssüf hissi doğurur. Bu, sentyabrın 27-dən dəmir yumruğa çevrilən xalq-iqtidar-ordu birliyinə, Azərbaycan hərbçilərinin canı-qanı hesabına əldə olunan şanlı qələbəmizə arxadan zərbədir. Bəyanatın əhəmiyyətini başa düşmək üçün gəlin, ən azı İrəvanda və dünyada onun təsirlərini izləyək. Bəlkə onda bəzi vətəndaşların narahatlıqlarına son qoyulacaq, əldə etdiyimizi layiqincə qiymətləndirəcəklər.

Bu gün İrəvanda baş verən iğtişaşlar, istefa tələbləri onların nə itirdiklərinin fərqində olduqlarını, beynəlxalq ekspertlərin bəyanata verdikləri qiymət isə Azərbaycanın möhtəşəm qələbəsini etiraf etdiklərini göstərir. Biz də necə möhtəşəm bir qələbə qazandığımızı yaxşı anlamalı və bu zəferi "qılınclamağa" çalışanlara qarşı düşmənə göstərdiyimiz birliyi nümayiş etdirməliyik. Əmin olmalıyıq ki, Azərbaycan dövlətinin lideri nəyi, nə vaxt, necə etmək lazım olduğunu yaxşı bilir. Hər zaman olduğu kimi, xalqımıza yaraşan Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməkdir.

Ermənistan 30 il ərzində Azərbaycanın döyüşə bilməməsi və özünün məğlubedilməzliyi haqqında miflərə ürəkdən inanmağa davam edirdi. Bu müddət ərzində isə Azərbaycan davamlı olaraq müdafiə siyasətini hərtərəfli inkişaf etdirib, güclü silahlı qüvvələrini formalaşdırırdı. Azərbaycan qısa zamanda Ermənistanın illərlə Qarabağda qurduğu istehkamları dağıtdı, məşhur "Ohanyan xətti"ni yardı və "məğlubedilməz erməni ordusu" haqqında mifi alt-üst etdi. Azərbaycan Ordusunun əzmkarlığı və mərdliyi qarşısında Ermənistan silahlı qüvvələri aciz qaldı və bir çox hallarda tutduqları mövqeləri döyüşsüz təslim etdilər. "Arabo" adlı könüllü erməni dəstəsinin komandiri Manvel Yegizaryana görə, "Azərbaycan Zəngilanı 3 pikapla aldı". N. Paşinyana görə isə Şuşanın itirilməsindən sonra Ermənistan iki dəfə onu geri almağa cəhd göstərsə də hər iki halda uğursuzluğa düçar olmuşdu.

44 gün davam edən döyüşlər nəticəsində Azərbaycan işğal olunmuş 7 ətraf rayondan dördünü, habelə Dağlıq Qarabağa aid olan Hadrut və Xocavəndin nəzərəçarpan hissəsini, Xocalının bir sıra kəndlərini və ən əsası Şuşa şəhərini azad etdi. Böyük Britaniyanın BBC yayım kanalı ekspertinin fikrincə, Şuşaya nəzarət edən tərəf bütün Dağlıq Qarabağa nəzarət edir. Kremlə yaxın rusiyalı politoloq Qleb Kuznetsova görə isə Şuşanın və ordunun itirilməsi ilə Qarabağda separatçı rejim daha mövcud olmayacaq.

Vurğulayaq ki, Ermənistan son 30 ilə yaxın dövrdə Dağlıq Qarabağın şimal və qərb hissələrində güclü istehkamlar qurmağı bacarmışdı. Çətin coğrafi relyeflə birlikdə Kəlbəcər və Ağdamın azad olunması Azərbaycan Ordusuna böyük itkilər hesabına başa gələ bilərdi. Lakin dövlətin uğurlu diplomatiyası nəticəsində Azərbaycan öz əsgərlərini qurban vermədən 3 ətraf rayonun azad edilməsinə nail oldu. Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz işğal olunmuş ərazilərdən çıxması, Azərbaycanın Ermənistan ilə sərhəd boyunca silahlı qüvvələrinin yerləşdirilməsi ilə yekunlaşacaq. Laçın dəhlizi vasitəsilə Ermənistan və Dağlıq Qarabağ arasında dəhliz yaradılsa da, vurğulayaq ki, Dağlıq Qarabağın 4 tərəfi Azərbaycan silahlı qüvvələrinin nəzarəti altında olacaq.





Azərbaycan çətin vəziyyətdə ona dostluqda and içən ölkələri sınamaq imkanı əldə etdi. Prezident cənab İlham Əliyevin dediyi kimi, "bu, necə deyərlər, həqiqət anıdır. Biz kimin kim olduğunu görürük, kimin bizim yanımızda möhkəm dayandığını görürük və bunu heç vaxt unutmayacağıq". Bir çox tərəfdaş ölkələr müttəfiq səviyyəsinə qədər yüksəldi, bir çox digərlərinin isə iç üzü aşkarlandı. Əksinə, müttəfiqsiz qalan Ermənistan bütün diaspor və lobbisini səfərbər etməsinə baxmayaraq, Azərbaycana qarşı nəzərəçarpan bir həmlə təşkil edə bilmədi.

Azərbaycan diplomatiyasının daha bir uğuru qərəzli həmsədrlər institutunu pərt etməsidir. İmzalanan bəyanat və sonrakı monitorinq məsələləri Rusiya və Türkiyənin yaxın iştirakı ilə həyata keçiriləcəyindən, Azərbaycan eyni anda iki diplomatik uğura nail oldu. Bir tərəfdən Azərbaycana qarşı qərəzli mövqeləri ilə seçilən ABŞ və Fransa tənzimlənmə prosesindən faktiki olaraq uzaqlaşdırıldı, digər tərəfdən isə Azərbaycana müttəfiq ölkə olan Türkiyənin tənzimlənmədə yaxından iştirak etməsi təmin olundu. Rusiyalı politoloq Qriqori Trofimçuka görə, "Qarabağ Donbas deyil" və Rusiya burda nə ərazi, nə dəniz, nə zavodlar, nə əhali əldə etmir. Türkiyə sülhməramlılarının bütün Qarabağ zonası boyunca iştirakı məsələsinə gəldikdə isə politoloqa görə, bunu heç müzakirə etmək və vərəqlərə (sənədə) baxmaq lazım deyil. Q. Trofimçuka görə, Türkiyə hərbçiləri burda avtomatik peyda olacaqlar və bunun əksini düşünmək gülünc olardı.

Bəyanat imzalandıqdan sonra Fransa xarici işlər naziri Jan-İva Le Drian "bu çətin günlərdə" erməni xalqı ilə dostluğunu bir daha təsdiqlədiyini və "bu dramatik kontekstdə Ermənistanın tərəfində" olduğunu bəyan etdi. Fransa, həmçinin döyüş əməliyyatları və "məcburi köçkünlərlə bağlı" şəraiti həll etmək üçün Ermənistana bütün humanitar yardım göstərəcəyini bildirdi. Nəzərə çatdıraq ki, Fransa xarici işlər naziri öz çıxışında Qarabağdan Ermənistana gəlmiş erməniləri məcburi köçkün adlandırmışdır. Halbuki, beynəlxalq hüquqa görə, Qarabağda yaşayan ermənilər Azərbaycan Respublikasının vətəndaşları olduğundan onlar məcburi köçkün yox, qaçqın statusu daşıyırlar. Məcburi köçkün isə hər hansı bir səbəbdən ölkə daxilində bir yerdən digər yerə köç etməyə məcbur olan şəxslərə deyirlər. Başqa sözlə desək, Fransa Qarabağdan gələn ermənilərə məcburi köçkün deməklə, Azərbaycanın ərazi bütövlüyünə bir daha hörmətsizlik ifadə etdi. Bu səbəbdən, tənzimləmə prosesindən Fransanın kənarlaşdırılması Azərbaycan diplomatiyasının daha bir qələbəsi kimi nəzərdən keçirilməlidir.

Azərbaycanın daha bir diplomatik uğuru ölkəmizə qarşı 90-cı illərdə ABŞ Konqresi tərəfindən qəbul edilmiş qərəzli 907-ci düzəlişin aktuallığını itirməsidir. Xatırladaq ki, 907-ci düzəliş Azərbaycanın, guya Ermənistan və Dağlıq Qarabağa qarşı blokada təşkil etməsinə görə qəbul edilmişdir. Amma işğal altında olan ərazilərin Azərbaycana qaytarılması, separatçı rejimin və işğalçı qüvvələrin Azərbaycan ərazilərindən çıxıb, Ermənistana qayıtması, 907-ci düzəlişin hüquqi ləğvinə gətirir.

İmzalanan bəyanata əsasən, Azərbaycan yaxın vaxtlarda Ermənistan ərazisi boyunca Naxçıvanı ölkəmizin qərb əraziləri ilə birləşdirən dəhliz əldə edəcəkdir.

Britaniyalı analitik, Avropa Karneqi fondunun baş elmi işçisi Tomas de Vaala görə, bu razılaşma erməni tərəfi üçün alçaldıcıdır: "bu, ermənilər üçün böyük məğlubiyyətdir". Vaalın fikrincə, daha bir vacib amil Paşinyanın xalqı hazırlamaq üçün heç bir addım atmaması və bəyanatı imzalamazdan bir neçə saat qabaq qələbədən danışmasıdır. Hazırda bütün Ermənistan N. Paşinyanı axtarır. Xalq tərəfindən hakimiyyətə gətirildiyini hər yerdə öyünərək deyən, özünü demokratik ölkə başçısı sayan şəxs, indi öz xalqından gizlənməyə məcburdur. Xalqın qəzəbindən gizlənən təkcə N. Paşinyan deyil. Bəzi məlumatlara əsasən, bir həftə bundan qabaq N. Paşinyanın iki qızı Kanadaya qaçıb, Anna Akopyanın oğlu və kiçik qızı ilə harada olduğu isə heç kəsə məlum deyil.

Ermənistanın sabiq prezidenti L. Ter-Petrosyan vətəndaş müharibəsindən qorxduğunu etiraf edir. Ermənistanda N. Paşinyan tərəfdarları ilə əleyhdarları arasında güclü qarşıdurma müşahidə edilməkdədir. Ermənistanın sabiq baş naziri Q. Baqratyana görə, vəziyyət belə davam etsə, yaxın vaxtlarda Ermənistan türk vilayətinə çevriləcək. Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin sabiq rəhbəri və "Vətən" partiyasının sədri general Artur Vanetsyan kapitulyasiyanın Ermənistan tarixinin ən biabırçı səhifələrindən birinə çevrildiyini bildirdi. General Vanetsyanın sözlərinə görə, dövlət son ana qədər xalqı aldadırdı, yalandan qələbə çaldığını deyirdi, həqiqəti söyləməyə çalışanları isə xain adlandırırdı. Erməni politoloq, "Voskanapat" analitik mərkəzinin müdiri Qrant Məlik-Şahnazaryana görə, bu bəyanatla Ermənistan bütün Qarabağı Azərbaycana təhvil verir. Vəziyyəti dəyişdirmək üçün o, "erməni xalqını" növbəti gün saat 13:00-da Azadlıq meydanına gəlməsini tələb etdi.

"Zamanın məğzi" hərəkatının lideri Sergey Kurqinyan bəyanatın "erməni dövlətçiliyinin məhvi ilə yekunlaşa biləcəyini" bildirdi. Birbaşa efirdə Paşinyana qarşı qeyri-etik ifadələrdən istifadə edən S. Kurqinyan, N. Paşinyanın bütün ətrafının onunla birlikdə parlament və siyasi isteblişmentdən getməli olduğunu və onlara qarşı məhkəmə işinin başlanılma zəruriliyini qeyd etdi. Həmçinin, Kurqinyan Paşinyanın Qarabağı təslim etmək məqsədilə hakimiyyətə gətirilmiş agent olduğunu sübut edəcək məlumatların da olduğunu bildirdi.

Qeyd edək ki, N. Paşinyan tərəfdarları da öz növbəsində baş naziri müdafiə etməkdə və qarşı tərəfi ittiham etməkdə kifayət qədər fəaldır. Ermənistanın baş qərargah rəisi Onik Qasparyan ölkəsinin müharibəni uduzduğunu, Paşinyanın isə günahkar olmadığını bildirdi. Baş qərargah rəisinə görə Paşinyan bu qərarı onun təklifi və vəziyyətin hərtərəfli təhlilindən sonra qəbul etdi. Qasparyana görə, qərarın qəbul olunmaması ciddi fəsadlara gətirə bilərdi. Müxalif "Çiçəklənən Ermənistan" partiyasının sədri Qaqik Sarukyanın xəyanət haqqında ittihamlarına cavab verən N. Paşinyan bildirdi ki, Q. Sarukyan həbsdən çıxdıqdan sonra könüllü dəstə yaradıb, döyüşə gedəcəyinə söz verdi, amma bunu etmədi.

Bəli, imzalanmış bəyanat nəticəsində işğal olunmuş ərazilərin qayıtması Azərbaycanın illərdi yaşadığı məğlub ölkə psixoloji durumunu sona çatdırdı və onu zəfər çalmış xalq durumu ilə əvəzlədi. Ermənistanı isə bundan sonra və əbədi olaraq məğlub xalq kimi yaşamağa məhkum etdi.

Yaşadığımız günlər Azərbaycan tarixinin ən zəfərli, şanlı, şöhrətli günləridir. Xoşbəxtik ki, Azərbaycan tarixinin məhz bu dövründə yaşamaq bizə nəsib olub.

Azərbaycan xalqı öz Prezidenti, Ali Baş Komandanı İlham Əliyevin və Azərbaycan Ordusunun arxasındadır. Bu birlik Vətən müharibəsində qalib gəldiyi, Qarabağı qaytardığı kimi, Qarabağa normal həyat və inkişaf da gətirəcək.

***Tamam CƏFƏROVA,***
***Milli Məclisin deputatı,***
***tarix üzrə fəlsəfə doktoru***